# APREL DÖYÜŞLƏRİ VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ



*Nazim* Məmmədov
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Qarabağ tarixi» şöbəsinin baş elmi işçisi, t.ü.e.d.*

Məqalədə, Azərbaycanın ən yeni tarixində şərəfli səhifələrdən biri olan dördgünlük aprel döyüşləri təhlil olunur. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş bu müharibə əslində Ermənistan işğalçılarının növbəti atəşkəsi pozmaqlarına verilən cavab olmuşdur. Müharibədə Azərbaycan ordusu Talış kəndi ətrafındakı yüksəklikləri, Seysulan məntəqəsini, Cəbrayıl rayonundakı Cocuq-Mərcanlı kəndini, Füzuli rayonundakı "Lələ-təpə" yüksəkliyini, Ağdərə-Madagiz istiqamətində yolları erməni-daşnak terrorçularından xilas etmişdir [1].

Təəssüflər olsun ki, bu müharibədə Azərbaycan Silahlı Qüvvələrinin 88 hərbi qulluqçusu həlak olmuş, 1 Mi-24 helikopteri vurulmuş və 1 tank mina partlayışı zamanı sıradan çıxmışdı. Döyüşlərdə, ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilmiş, qul-durların 320 döyüşçüsü öldürülmüş və 500-dən artıq döyüşçüsü yaralanmışdır [2].

Müharibəni aparmağın qanunları var. Əhali yaşayan yerdə müharibə aparılmaz. Müharibə zamanı qocaya, qadına, uşağa, xəstələrə güllə atılmaz, aman diləyən bağışlanar. Lakin, erməni daşnakları "Müharibənin Qanunları"na məhəl qoymadan, namərdcəsinə qarşılarına kim gəldi amansızlığla qətlə yetirmişlər. Bir şərtlə ki, həmin insan müsəlman olsun. Təkcə bir faktı qeyd edək ki, təkcə 1988-ci ildə münaqişə başlayanda Ermənistanda 23 azərbaycanlı azyaşlı uşaq qəddarlıqla öldürülmüş, həmin ilin dekabrında isə Hamamlıda 17 azyaşlı dəmir borulara doldurularaq qaynaq edilmişdir. 1988-ci ilin noyabrında 70 uşaq amansızcasına qətlə yetirilmişdir. 1989-cu ildə Kəlbəcərdə 8, Kərgicahanda 2, 1992-ci ildə Xocalıda 63 və digər işğal olunmuş bütün rayonlarımızda yüzlərlə azyaşlı erməni vandalizminin qurbanına çevrilmiş və atəşkəs dövründə bu proses davam etmişdir [6]. Təəssüflər olsun ki, bu acınacaqlı hadisələr dünyanın və nüfuzlu beynəlxalq təşkilatların gözləri qarşısında baş verir. Eyni zamanda, bütün bunlar qeyrətli Azərbaycan ordusunu dinc qoya bilməzdi. Müharibə başlayan vaxtdan "Böyük Dayaqlar"larına arxalanan Ermənistan Silahlı birləşmələri cəbhədə müvəqqəti olaraq irəliləmişdilər. Havadarlar xəbər tutana qədər düşmən tərəfə "dərs vermək" lazım idi. Bu səbəbdən Azərbaycan ordusu ildırım sürətli bir əməliyyata başladı. Ermənistan ordusunun atəşkəsi pozması səbəbindən başlayan bu müharibənin çox böyük əhəmiyyəti var idi. Bu, aylarla, illərlə aparılan düzgün hərbi quruculuq işlərinin ilk addımı sayıla bilərdi. Ali Baş Komandan İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində "N" hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılış mərasimində haqlı olaraq bildirmişdir ki, "bütün bu uğurların təməlində düşünülmüş siyasət dayanır. Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Həm təminat, təchizat, müasir texnikanın alınması, döyüş qabiliyyətinin artırılması, eyni zamanda, bizim hərbi uğurlarımız siyasi uğurlarla da tamamlanır" [3]. Aprel hadisələrindən sonra ordumuzun hansı qüdrətə sahib olduğunu Ali Baş Komandan açıq bəyan etdi. Məsələ burasındadır ki, hadisələrdən daha öncə belə bir bəyanat erməni havadarları tərəfindən müharibəyə təşviq, sülh danışıqlarına maneə kimi təqdim edilə bilərdi. Lakin, bu, müharibənin Ermənistan Silahlı Birləşmələrinin atəşkəsi pozması ucbatından baş verməsi və biyabırcasına məğlub olması əhəmiyyətli tarixi hadisələr təsdiq etdi. Prezident, Ali Baş Komandan həmin məsələlərə münasibətini bu cür ifadə etmişdi: "Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan ordusu bu döyüşlərdə öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Bəli, Azərbaycan ordusu yenilməz ordudur, Azərbaycan ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və bu proses günbəgün artır" [4]. Sözsüz ki, Azərbaycanın güclü iqtisadiyyatı müasir silahlarla təchiz edilmiş Güclü ordunun mövcudluğunu şərtləndirir. Sevindirici haldır ki, Azərbaycan ordusunun gücünü dünya tanıyır. Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Bütün bunlar Ali Baş Komandan İlham Əliyevin çıxışlarında öz əksini tapmışdır: "Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır" [4].

Fikrimizcə, ordunun gücü təkcə silah sursatla müəyyən edilmir. Bu güc həm də əsgərin şüurunda, ürəyində, damarlarındadır. Çox yaxşı haldır ki, Azərbaycan ordusunda belə bir dərin düşüncə, vətənpərvərlik, milli rüh formalaşdırılmışdır. Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Əliyev çıxışlarında Azərbaycan əsgərinin vətənpərvərliyinə, yüksək döyüş ruhuna malik olduğunu və bütün bunların döyüşlərdə böyük əhəmiyyət kəsb etdiyini göstərmişdir: "Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bir daha Azərbaycan əsgərinin yüksək vətənpərvərliyini bir daha sübut etdi" [2]. Keçmiş tariximizi vərəqləsək Azərbaycan ordusunun hər zaman şanlı, qəhrəman və məğlubedilməz olduğunu görərik. Sadəcə tarixin müəyyən məqamlarında düşmənlər birləşərək onu meydanda təkləyə biliblər, dinc sakinləri, körpələri, qadınları, xəstələri qəfil və xaincəsinə qətlə yetirməklə insanların ürəyini xoflu edə biliblər. Belə hallara baxmayaraq, 2016-cı ilin aprelində yatmış aslan kimi Azərbaycan ordusu ilk imkanda ayağa qalxıb düşməni lərzəyə sala bildi. Aprel döyüşləri ordu ilə rəhbərliyin birgə olduğunun göstəricisidir. Ali Baş Komandan İlham Əliyev cıxışlarından birində demişdir: "1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmiş, 22 kənd işğalçılardan azad edilmişdir [7]. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Ordumuzun işğaldan azad etdiyi torpaqlar bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz tezliklə işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq"... [1].

Aprel döyüşləri bir daha, Azərbaycan Respublikasının dövlət başçısı ilə ordunun birliyini təsdiq etdi. Azərbaycanın iqtisadi, siyasi və mədəni inkişafı güclü ordunun yaranmasını şərtləndirmişdir. Çünki, iqtisadi inkişaf hərbi gücünü artmasını, siyasi inkişaf beynəlxalq nüfuzunun artırmasını, mədəni inkişaf və milli dəyərlərimizin qorunması isə milli şüurun yüksəldilməsini təmin etmişdir. Bütün bunların kökündə isə dövlət başçısının yeritdiyi uğurlu daxili və xarici siyasət dayanır.

2016-cı il aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri əks tərəfin daha güclü olan hissələrindən hücum etdi. Çünki, qarşı tərəf məqsədli şəkildə sərhədd xəttini özlərinəməxsus, daha güclü mövqelərdən atəşkəsi pozmuşdular. Bu səbəbdən də müharibədə Azərbaycan tərəfinin də itgiləri olmuşdur. Buradan belə bir nəticə çıxır: Azərbaycan ordusu Ermənistan Silahlı Birləşmələrinin daha güclü mövqelərini asanlıqla ələ keçirə bilirsə, deməli, zəfər bayrağını tezliklə Azərbaycanın qədim İrəvan şəhərinə sancmaq olar. Bütün bu və ya digər önəmli məsələlərə aydınlıq gətirin Ali Baş Komandan İlham Əliyev cıxışlarından birində bildirmişdir: "Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Zəif mövqe deyəndə əslində bir çox cəhətləri, o cümlədən yuxarıda qeyd etdiyimiz məsələlər də nəzərdə tutulmuşdu. Erməni tərəfi həm özünü, həm də ətrafını inandırmışdı ki, guya o, Azərbaycandan güclüdür. Bu yalandan, psixoloji təzyiqdən xilas olmaq lazım idi. Azərbaycan əsgəri bu damğanı üzərindən atmalı idi. Bu səbəbdən strateji baxımdan əks tərəfin güclü mövqelərinə baxmayaraq Azərbaycan Ordusu məhz öz güclərinə güvənərək düşmənə nəinki cavab atəşi açdılar, üstəlik hücuma da keçdilər və strateji əhəmiyyətli mövqelərimizi geri qaytardılar"... [2].

Dördgünlük aprel zəfəri başa çatarçatmaz Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandan İlham Əliyev Füzuli rayonuna səfər etmiş və rayon ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində çıxışında göstərmişdir: "Bu gün biz Lələ təpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əkshücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa, bu gün Azərbaycan ordusu tam nəzarət edir. Qanlar günahsız qan tökmədilər, bir vaxtlar ataların vuruşduğu və ala bilmədiyi torpaqları indi oğullar aldı. Aprel döyüşlərində işğaldan azad olunan torpaqlar elə strateji əhəmiyyətli nöqtələrdir ki, oradan istənilən erməni məntəqəsi vurula bilər. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu ermənilər öz xislətlərinə uyğun olaraq dinc sakinləri atəşə tutmuşdular və nəticədə 2 nəfər dinc sakin öldürülmüşdü. Bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin etmək məqsədi ilə Azərbaycan ordusu Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilmişdi. Nəticədə, ermənilərə məxsus 6 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilmiş, o cümlədən yüzdən çox hərbi qulluqçusu ölmüş və yaralanmışdı. Döyüş nəticəsində ... Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi erməni qüvvələrindən tam təmizlənmişdir. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ-təpə" adlanan yüksəklik də Azərbaycan qüvvələrinin nəzarətinə qaytarılmışdır. Ən nəhayət, Ağdərə-Madagiz istiqamətində yolların nəzarəti də ordumuzun tərəfinə keçmişdir. Yazıda sadəcə adlar kimi görünən bu məkanlardan hər biri bu gün müqəddəsləşib - uğrunda tökülən qanlara, verilə canlara, yaralanan igidlərə görə... aprel döyüşləri dərsliklərə salınsın ki, qoy gələcək nəsil tariximizin bu şanlı səhifəsini bilsin, öz kökü ilə qürur duysun, üzərində durduğu, vətən adlandığı torpağı tanısın [3].

Müharibə, sözsuz ki, itkilərlə, yaralananlarla davam edir, lakin zəfərlə başa çatanda bu ölüm ülvüləşir, əbədiləşir. Bayrağımızın ən yüksək zirvədə dalğalanması Azərbaycan əsgərinin mətnliyinin simvoluna çevrildi. Hətta, yaralı əsgərlərimizin döyüş bölgəsinə qayıtmaq arzusu onların vətənpərvərliyinin göstəricisi idi. Ali Baş Komandan cıxışlarından birində göstərmişdir ki: "Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq" [2].

*(Davamı 10-cu səhifədə)*

# APREL DÖYÜŞLƏRİ VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ

*(Əvvəli 7-ci səhifədə)*

Döyüşlər zamanı Azərbaycanın qəhrəman oğulları öz qanları və canları ilə tarix yazdılar, həm də şanlı bir tarix. Bu oğulların arasında Azərbaycanın az qala bütün bölgələrindən iştirakçılar vardır. Aprel döyüşlərində açıq-aydın göründü ki, milli Liderin iradəsi ilə millət yumruq kimi birləşə bilir. Vətənimizin hər guşəsindən gələn əsgərlərimiz məhz Azərbaycanın keşiyində durub, onun ərazi bütövlüyü üçün canlarından keçdilər. Azərbaycanın kütləvi informasiya vasitələrində yayımlanmış məlumatlara əsasən Azərbaycan 86 şəhidini dəfn edib. Azərbaycanın elə bir şəhəri, rayonu yoxdur ki, orada Şəhidlər Xiyabanı olmasın. Əslində, bu faktın özü də bir daha təsdiq edir ki, məsuliyyətli məqamlarda hər kəs azərbaycanlıdır. Bu, həm də o deməkdir ki, Azərbaycan xalqı bir millət kimi formalaşıb, vətən anlayışını bütün məsuliyyəti ilə dərk edir. Bu həm də o deməkdir ki, "hər bir Azərbaycan vətəndaşının Prezidenti" olmaq istəyən Liderin arxasında da bütün millət durur və bir əmri ilə düşməni məhv etməyə hazırdır, qadirdir.

Dördgünlük Aprel şəhidlərimiz 1972-1997-ci illər arasında doğulan gənclərdir. Bu müharibə, gəncləri Vətənə olan laqeydlikdə günahlandıran, onları dəbdəbə, texnologiya dövrünün qulu hesab edən kəslərə tutarlı bir cavab oldu. Azərbaycanın mərd oğulları əmin idilər ki, Ali Baş Komandanın da dediyi kimi, "onların gördüyü işlər haqq işdir, ayaqlarının altında Azərbaycan torpağıdır və onu düşmən tapdağından təmizləmək lazımdır. Aprel döyüşləri zamanı çox rəmzi bir hadisə dediklərimizin sanki canlı nümunəsidir. Döyüşlər zamanı Lələtəpəni alan və orada şəhid olan sıravi Cabbarxan İlham oğlu Hacıağayevin bir ayağı məhz o Təpədə dalğalanan Azərbaycan bayrağının dibində dəfn olunmuşdur" [4].

Müstəqil Azərbaycanın qəhrəman oğullarının məzarları vətənə nur çiləyən və heç vaxt sönməyən çıraqlardır. Aprel döyüşlərinin, bütün Azərbaycan ordusunun başında Ali Baş Komandan durur və təbii ki, vətənin hər şəhidinin, hər yaralısının yanında da mənəvi olaraq məhz onun özü və dəstəyi durur. İlham Əliyev çıxışlarından birində demişdir ki: "Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!" [5]. Bu, öz ordusuna güvənən bir Ali Baş Komandanın bəyanatı, təşəkkürüdür. Bununla yanaşı, döyüşlər zamanı həlak olan qəhrəman oğullarının hər biri adının əbədiləşdirilməsi və ailəsinə göstərilən qayğı vətən oğlu, adının nə qədər uca olduğundan xəbər verir. Məhz aprel döyüşlərindən sonra bütün Azərbaycan xalqı öz qəhrəman oğullarını adbaad tanıdı, sevdi, qürur duydu. Azərbaycanın Milli Qəhrəmanları sırasına Həmidov Şükür, Mirzəyev Murad, İmanov Samid də daxil oldu.

Yuxarıda adıgedən igid Azəri övladları hər bir azərbaycanlı gəncinə nümunədirlər və hər bir Azərbaycan övladı başa düşür ki, onun torpaqları işğal altındadır, bu işğaldan yalnız onların vətənpərvərliyi xilas edə bilər. Eyni zamanda, onların göstərdikləri qəhrəmanlıqlar heç vaxt yaddan çıxmır, unudulmur.

Aprel döyüşləri Qarabağ hadisələrində dönüş nöqtəsi hesab etmək olar. Təsadüfi deyil ki, 2016-cı il 6 apreldə Bakıda minlərlə gənc cəbhə bölgəsindəki əsgərlərə dəstək məqsədilə küçələrə çıxdılar. Bu cür dəstək aksiyaları nəinki Azərbaycanın paytaxtı və digər şəhərlərində, bütün dünyanın ən demokratik ölkələrində də keçirildi [9].

Dördgünlük Aprel döyüşlərində həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik Azərbaycanın bir neçə yüksəklik və yaşayış məntəqələri Ermənistanın işğalçı qüvvələrindən tam azad olundu. Azərbaycan tərəfi Beynəlxalq sülh danışıqlarına əməl etmək üçün atəşkəsə razılıq versə də, erməni tərəfi məğlubiyyətlə barışmaq istəmir və irəli hücum edib yeni-yeni məğlubiyyətlərə uğrayırdı. Belə ki, yalnız aprelin 4-də axşam saatlarında Ermənistanın 10 ədəd döyüş tankı heyətlə birlikdə atəş gücü vasitəsilə məhv edilmişdir. Ümumilikdə aprelin 4-ü, gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində Ermənistan silahlı birləşmələrinin daha 70 nəfərədək canlı qüvvəsi itkiyə məruz qalıb, 20-dək hərbi texnikası tam sıradan çıxarıldı [10].

Aprel döyüşlərinin uğurlu gedişi Ermənistanın özünün də varlığını şübhə altına alardı və bu səbəbdən o, bütün havadarlarını ayağa qaldırdı. Maraqlıdır ki, əgər bu münaqişə zamanı zəif, itki verən tərəf Azərbaycan, irəliləyən, üstünlüyü əldə saxlayan isə Ermənistan olsaydı heç bir beynəlxalq təşkilat, dövlət məsələyə qarışmazdı. Ancaq aprel müharibəsində vəziyyət başqa idi. Məsələyə az qala bütün dünya qarışdı. Avropa İttifaqının rəsmisi Federika Moqerini qarşıdurmanın getdikcə ciddi xarakter almasından narahatlığını bildirdi: "Əmin olmaq istəyirik ki, münaqişə tərəfləri baş verənlərin məsuliyyətini anlayır və beynəlxalq təşkilatların narahatlığına anlayış göstərəcəklər. Biz münaqişənin danışıqlar masası arxasında və sülhlə nəticələnməsini istəyirik" [7]. BMT-nin Baş katibi Pan Gi Mun bütün tərəfləri hərbi əməliyyatlara son qoymağa, atəşkəs rejiminə tam əməl etməyə və vəziyyətin sabitləşməsi üçün addımlar atmağa dəvət etmişdir. Avropa Şurası Parlament Assambleyasının Prezidenti Pedro Aqramunt hər iki tərəfi atəşkəs rejiminə hörmət edib, dinc danışıqlara qayıtmağa və həmçinin BMT-ın qətnamələri əsasında Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərindən bütün silahlı qüvvələrini çıxarmağa çağırmışdır. Belə rəsmi danışıqlarla yanaşı, ölkə Prezidenti İlham Əliyevə başqa ölkə başçıları telefon zəngləri etməklə də öz münasibətlərini bildirmiş, təkrar atəşkəs rejiminin bərpa olunmasına razılıq vermişdi. Aprelin 5-də saat 1200-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə hərbi əməliyyatlar dayandırılmışdı. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdi. Çox keçmədi ki, Prezident İlham Əliyev "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Çocuq-Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı və bu sərəncama görə Cəbrayıl rayonunun Çocuq-Mərcanlı kəndində insanların təhlükəsiz və firavan yaşaması üçün görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturların tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat vəsait ayrılmışdır. Bundan başqa ölkə başçısı burada aparılan bərpa və abadlıq işləri ilə tanış oldu, yeni inşa edilən orta məktəb, məscidlə tanış oldu. Çox əhəmiyyətli bir faktdır ki, Çocuq-Mərcanlı kəndində inşa edilən məscid Prezident İlham Əliyevin tapşırığına əsasən Şuşa məscidinin bənzəri olaraq tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesaj oldu. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Çocuq-Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcəkdir [11].



Dördgünlük Aprel Döyüşlərini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, Azərbaycanın ən ağır probleminin - Qarabağ münaqişəsinin və ərazi bütünlüyünün pozulmasının həlli yolunda atılmış mükəmməl bir addım olmuşdur. Eyni zamanda, aprel döyüşlərio uğurlu qələbələrin və "Böyük qayıdışın" başlanğıcı hesab edilə bilər.

Aprel döyüşləri Azərbaycan Ordusunun Ali Baş Komandanının yerində olduğunu, onun düzgün müdrik siyasət apardığını təcəssüm etdirmiş və xalqla liderin birliyinin sarsılmaz olduğunu sübuta yetirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 iyun 2017-ci ildə Cocuq-Mərcanlıya səfəri zamanı çıxışında göstərmişdir ki, "bu gün tarixi bir gündür, Çocuq Mərcanlı kəndinin bərpası günüdür və bu, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Çocuq-Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, buradakı gənclərin əksəriyyəti başqa yerdə doğulmuşlar, onlar Çocuq-Mərcanlı kəndinin sakinləridirlər. Amma əminəm, sizin kimi yüzlərlə gənc var ki, Çocuq-Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bax, bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün, eyni zamanda, onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər var. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, ordusunun gücünü, cəsarətini göstərdi" [3].

Ali Baş Komandan sözünə davam edib bildirdi ki, bu gün biz Çocuq- Mərcanlıda yeni gözəl mərhələnin başlan Şuşa məscidinin bənzəri olan məscid tikilibdir. Növbəti mərhələdə ən azı 100 əlavə ev tikiləcək və Çocuq-ərcanlı kəndinin sakinləri buraya qayıdacaqlar. Siz isə gənc zabitlər kimi gələcəkdə ölkəmizin müdafiəsinin keşiyində dayanacaqsınız. Bütün gənclər kimi siz də hər an Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hazır olmalısınız. Bu gün Azərbaycan gənci vətənpərvərdir, vətənə bağlıdır, peşəkardır, biliklidir və bizim gücümüz bundan ibarətdir. Sizin kimi gənclər gələcəkdə ölkəmizin inkişafında önəmli rol oynayacaqlar... Sizə uğurlar diləyirəm. Sizi bu tarixi hadisə münasibətilə təbrik edirəm və Azərbaycan ordusuna yeni qələbələr arzulayıram" [3].

2016-cı ilin aprel hadisələri erməni qəsbkarlarına Azərbaycan dövlətinin və xalqının qətiyyətli mövqeyini və öz torpaqlarının azad edilməsi uğurunda mübarizəyə hazır olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan xalqı Qarabağ münaqişəsini, lazım gəlsə, silah yolu ilə həll etmək hüququnu daim özündə saxlayır. Belə ki, 2018-ci il mayın 20-dən 27-nə qədər naxçıvan Muxtar Respublikası Əlahidə Ümumqoşin ordusunun əks həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Ağbulaq, Qızılqaya yüksəklikləri, həmçinin Günüt kəndi ordumuzun nəzarəti altına keçmişdir. Döyüşlər nəticəsində, ümumi olaraq 11000 hektarlıq ərazi işğaldan azad edilmişdir. Bu uğurlu əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə, İrəvan-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan yaratdı.